# LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

**PGGIII: Azərbaycanda iqtisadi cinayətlərin qarşısının alınması və onunla mübarizə**




**İcra müddəti:** 01.03.2023 - 28.02.2026

**ŞT ölkələri:**
Azerbaijan

**Aİ-nin maliyyə yardımı:** € 562 000

**Ümumi büdcə:** € 702 500

**İcraçı təşkilat(lar):**
Council of Europe

**Sosial media hesablarına keçidlər:**
facebook.com/partnershipgovernance,
https://x.com/CoE_EU_PGG

**Internet səhifəsi:** partnership-governance-eu.coe.int/

**Layihənin təsviri:**

Layihə Avropa Şurasının monitorinq institutlarının tövsiyələrinə və beynəlxalq standartlara uyğun olaraq korrupsiya, çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması və onunla mübarizənin gücləndirilməsi, eləcə də aktivlərin bərpası sahəsində Azərbaycanda milli tərəfdaş qurumların bilik və bacarıqlarının artırılmasına dəstək olur. Ümumilikdə, layihə fəaliyyətləri korrupsiya ilə mübarizə, çirkli pulların yuyulması və digər iqtisadi cinayət hallarının araşdırılması və cinayət təqibi, həmçinin cinayət yolu ilə əldə edilmiş gəlirlərin effektiv şəkildə bərpası sahəsində qanunvericiliyin və tənzimləyici bazanın təkmilləşdirilməsinə və potensialın gücləndirilməsinə töhfə verir.

Layihə Avropa İttifaqı və Avropa Şurasının "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq" birgə Proqramının üçüncü mərhələsi çərçivəsində həyata keçirilir. Layihə iqtisadi cinayətkarlığa qarşı mübarizə sahəsində Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramının əvvəlki mərhələlərinin (I mərhələ 2015-2018 və II mərhələ 2019-2023) nəticələrinin davamı olaraq həyata keçirilir.

**Gözlənilən nəticələr:**

Layihə çərçivəsində aşağıdakı nəticələrə nail olunması nəzərdə tutulur:
1. Risk əsaslı təkmilləşdirilmiş anti-korrupsiya siyasətinin hazırlanması və monitorinqi, korrupsiyaya qarşı mübarizə alətləri və onların tətbiqinin gücləndirilməsi.
2. Dövlət satınalmalarında şəffaflığın artırılması
3. Pulların leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi (PL/TMM) sahəsində komplayns və nəzarətin təkmilləşdirilməsi, eləcə də aktivlərin bərpası üzrə institusional, qanunvericilik bazasının təkmilləşdirilməsi və bacarıqların artırılması
4. Benefisiar mülkiyyətçi haqqında məlumatların şəffaflığının artırılması
5. İqtisadi cinayətlərə qarşı mübarizədə hüquq-mühafizə, məhkəmə, Maliyyə Monitorinqi Xidməti və digər müvafiq qurumların bacarıqlarının gücləndirilməsi